Əziz xanımlar, bayramınız mübarək!

NO9 (1159) 04-10 mart 2021-ci il

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

AZƏRBAYCANDA YERLİ GƏMİ TİKİNTİSİ SƏNAYESİNİN İNKİŞAFINA VƏ YENİ İŞ YERLƏRİNİN YARANMASINA TÖHFƏ

Martın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı gəmiqayırma zavodunda "Ro-Pax" tipli "Akademik Zərifə Əliyeva" gəmi-bərəsinin suya salınması və eyni təyinatlı "Azərbaycan" gəmi-bərəsinin istismara verilməsi mərasimlərində iştirak ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva əvvəlcə "Akademik Zərifə Əliyeva" gəmi-bərəsinin suya salınması mərasimində iştirak ediblər.

Məlumat verilib ki, "Ro-Pax" tipli "Akademik Zərifə Əliyeva" gəmi-bərəsi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunub.

Qeyd edək ki, yeni gəmilərin tikintisi və donanmaların yenilənməsi Prezident İlham Əliyevin xüsusi nəzarətindədir və bu istiqamətdə atılan addımlar Gəmiçiliyin Strateji İnkişaf Planına uyğun həyata keçirilir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC yaradılan vaxtdan bu günədək keçən 7 il ərzində 18 yeni gəmi istismara verilib. Son bir ilin pandemiya şəraitində keçdiyini nəzərə alsaq, dövlətimizin başçısının davamlı inkişafa yönələn iqtisadi strategiyasının miqyası daha aydın nəzərə çarpar.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Ro-Pax" tipli "Azərbaycan" gəmi-bərəsinin istismara verilməsi mərasimində iştirak ediblər.

Bildirilib ki, nadirliyi ilə seçilən bu layihə çərçivəsində ilk dəfə Xəzərdə yeni "Ro-Pax" tipli gəmi-bərələr istismara veriləcək.

Xatırladaq ki, bu gəmilərin hazırlanması əsasən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin fəaliyyətindən əldə etdiyi mənfəət hesabına maliyyələşir. Bununla da yerli bazara sərmayə yatırılmaqla, səhmdarı dövlət olan müəssisə kimi Azərbaycanda yerli gəmi tikintisi sənayesinin inkişafına və yeni iş yerlərinin yaranmasına töhfə verilir.

Bakıda "Suraxanı" tanker-muzeyin açılışı olub

Martın 1-də Bakıda "Suraxanı" tanker-muzeyin açılışı olub.

Dünyada ilk dəfə yaradılan bu muzeyin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər. Ölkəmizdə gəmiçiliyin inkişafı ilə yanaşı, dənizçilik ənənələrinin qorunması, tarixinin araşdırılıb öyrənilməsi və yaşadılması istiqamətində də bir sıra layihələr həyata keçirilib. Azərbaycanda qədim tarixə malik dənizçiliyin keçmişini, bu gününü və gələcəyini özündə birləşdirən "Suraxanı" tanker-muzeyinin yaradılması dövlətimizin başçısının dəstəyi ilə bu sahədə atılan növbəti mühüm addımdır. Muzey qismində "Suraxanı" tankerinin seçilməsi də təsadüfi deyil. Bu gəmi öz dövrü üçün ən iri və müasir tankerlərdən biri olub.

Onun muzeyə çevrilməsi üçün Böyük Britaniya, Niderland, Türkiyə kimi qədim gəmiçilik ənənələri olan ölkələrin təcrübəsindən istifadə olunub. Beləliklə, 2000-dən artıq yerli gəmi təmirçisinin əməyi nəticəsində nadir layihə ərsəyə gəlib.

PREZİDENT İLHAM ƏLİYEV "AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ"NİN YENİ İNZİBATİ BİNASININ AÇILIŞINDA İŞTİRAK EDİB

Martın 1-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti üçün inşa olunan yeni inzibati binanın açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Yeni inzibati bina ilə tanış olan dövlətimizin başçısına məlumat verilib ki, müasir texnoloji sistemlərlə təchiz olunmuş binada beynəlxalq tələblərə cavab verən lokal informasiya texnologiyaları infrastrukturu, videokonfrans və rabitə sistemləri yaradılıb.

Burada ölkəmizdə dənizçilik peşəsinin qədimliyini əyani vasitələr, interaktiv təqdimatlarla ziyarətçilərə çatdıran "Üç əsrin şahidi" adlı muzey də yerləşir.

Bu muzeyin yaradılmasında əsas məqsəd Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin üç əsrə şahidlik edən şanlı tarixini bir araya gətirərək nümayiş etdirmək, tarixi eksponat və sənədləri konservasiya etmək və rəqəmsal formata çevirərək gələcək nəsillərə ötürülməsini təmin etməkdən ibarətdir.

PREZİDENTİN 4 DİLDƏ 4 SAATLIQ MƏTBUAT KONFRANSI

Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirib.

Media nümayəndələrinə müraciət edən Prezident İlham Əliyev deyib:

-Bu gün Xocalı soyqırımının 29-cu ildönümüdür. Xocalı faciəsi Ermənistan tərəfindən Azərbaycan əhalisinə qarşı törədilmiş qanlı cinayətdir, soyqırımıdır. Bu soyqırımı nəticəsində 613 mülki şəxs xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Onlardan 106-sı qadın, 63-ü uşaq idi. Xocalı soyqırımını törədənlər hərbi cinayətkarlardır. Onların bir çoxu İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu tərəfindən məhv edilmişdir.

Xocalı soyqırımı Ermənistan faşizminin təzahürü idi. Ermənistan faşizmi o vaxt baş qaldırırdı və 1992-ci ildən son hadisələrə qədər erməni faşizmi Azərbaycan xalqına böyük zərbə vurmuşdur. Hərbi təxribatlar, terror aktları, dinc əhaliyə qarşı qəddarlıq, şəhərlərimizin, kəndlərimizin atəşə tutulması, eyni zamanda, İkinci Qarabağ müharibəsi dövründə ballistik raketlərlə dinc şəhərlərin bombalanması – bütün bunlar erməni faşizminin təzahürləridir.

Xocalı soyqırımı dünya ictimaiyyəti tərəfindən tanınır, 10-dan çox ölkə bu hadisəni rəsmən soyqırımı kimi tanımış, təsdiq etmişdir və bu proses davam etdirilir. Azərbaycan dövləti, eyni zamanda, ölkəmizin ictimai təşkilatları bu sahədə böyük fəallıq göstərirlər və bu gün dünyada Xocalı soyqırımı haqqında kifayət qədər dolğun məlumat vardır. Ermənistan dövlətinin hərbi cinayətləri sənədləşdirilib, video, foto materiallar kifayət qədər geniş auditoriyaya təqdim edilibdir. İndi bütün dünya görür və bilir ki, Azərbaycan xalqı XX əsrin sonunda soyqırımına məruz qalmışdır. Xocalı soyqırımının törədilməsi ilə Ermənistan, əslində, Azərbaycan xalqının iradəsini qırmaq istəyirdi. Təsadüfi deyil ki, Ermənistan rəhbərləri – hərbi cinayətkarlar xarici jurnalistlərə müsahibə verərkən, bu barədə sualı cavablandırarkən qürur hissi ilə qeyd edirdilər ki, bəli, Ermənistan bu hərbi cinayəti dinc əhaliyə qarşı törədib. Ona görə ki, Azərbaycan xalqı görsün, Ermənistan rəhbərliyi dinc əhaliyə də əl qaldıra bilər. Biz isə Xocalı qurbanlarının intiqamını döyüş meydanında aldıq. 44 gün davam edən İkinci Qarabağ müharibəsində Ermənistan ordusunu darmadağın edərək, öz tarixi torpaqlarımızı işğalçılardan azad edərək, o cümlədən Xocalı qurbanlarının da qanını aldıq. Azərbaycan güclü dövlət kimi heç vaxt imkan verməz ki, bir daha erməni faşizmi baş qaldırsın, halbuki belə meyillər görünməkdədir. Bu gün Azərbaycan öz fəaliyyəti ilə bölgənin gələcək inkişafına töhfə verir, bölgədə sabitliyin tam bərqərar olması üçün əməli addımlar atır.

Bu günlərdə Azərbaycanda bir çox tədbirlər keçirilir və bu tədbirləri işıqlandırmaq üçün xaricdən böyük bir jurnalist qrupu gəlmişdir. Mən onlara təşəkkürümü bildirirəm ki, bu hadisələri, bu soyqırımını işıqlandırmaq üçün bu gün Azərbaycandadırlar. Eyni zamanda, bilirəm ki, onların bəziləri azad edilmiş torpaqlara getmişlər, o dağıntıları öz gözləri ilə görmüşlər və bundan sonra da gedəcəklər. Buna görə bir daha dərin təşəkkürümü bildirirəm.

Prezident İlham Əliyev yerli və xarici media nümayəndələrinin çoxsaylı suallarını cavablandırıb.

Qeyd edək ki, dövlət başçısı mətbuat konfransında 35 media qurumunun 50-dək sualını cavablandırıb.

Böyük Britaniyadan olan jurnalist Aynur Tattersal mətbuat konfransında deyib ki, 25 ildir jurnalistika ilə məşğuldur, amma hər hansı prezidentin dörd dildə bu cür mətbuat konfransı keçirməsinin şahidi olmayıb. O, Prezidentin rekorda imza atdığını dilə gətirib.

Yanvar-fevral aylarında vergi daxilolmaları 118,7 faiz icra olunub

Bu barədə İqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.

"Biznes pandemiyadan sonrakı bərpa dövrünə daxil olur. İlin iki ayının yekunları ürəkaçandır. İlkin məlumata əsasən, vergi daxilolmaları proqnozlara nisbətən 118,7 faiz icra olunub. Qeyri-neft-qaz sektorundan əlavə daxilolmalar 84,7 milyon manat təşkil edib", - deyə nazir bildirib.

Mərkəzi Bankın valyuta ehtiyatları artıb

Azərbaycan Mərkəzi Bankının (AMB) sərəncamında olan rəsmi valyuta ehtiyatlarının həcmi açıqlanıb.

AZƏRTAC Mərkəzi Banka istinadla xəbər verir ki, AMB-nin valyuta ehtiyatları martın 1-nə 6 milyard 367,6 milyon ABŞ dolları olub. Bu göstərici ötən ayın eyni dövrü ilə müqayisədə 2,4 milyon dollar çoxdur.

Nağdsız ödənişlərin inkişafı üzrə fərqlənən banklar açıqlanıb

Mərkəzi Bank (ABM) tərəfindən Azərbaycan Banklar Assosiasiyası ilə birlikdə rəqəmsal ödənişlərin genişləndirilməsi, innovativ ödəniş həllərinin tətbiqi, elektron bankçılığın inkişafı istiqamətlərində 2020-ci ildə elan edilmiş nominasiyalar üzrə nəticələr müəyyən edilib.

AMB-dən AZƏRTAC-a bildirilib ki, sözügedən müsabiqə çərçivəsində 5 nominasiya üzrə aşağıdakı banklar qalib olub:

- "Ödəniş kartları ilə nağdsız ödənişlər üzrə lider bank" – "Unibank" KB ASC;

- "İnternet bankçılıq xidməti üzrə lider bank" – "Paşa Bank" ASC;

- "Mobil bankçılıq xidməti üzrə lider bank" – "Kapital Bank" ASC;

- "Təmassız ödənişlər üzrə lider bank" – "Paşa Bank" ASC;

- "Təmassız POS-terminal infrastrukturu üzrə lider bank" – "Paşa Bank" ASC.

Məlumat üçün bildiririk ki, rəqəmsal ödənişlərin artırılması istiqamətində görülən tədbirlər nəticəsində 2020-ci ilin göstəricilərinə əsasən, ölkə daxilində ödəniş kartları ilə aparılmış

əməliyyatların ümumi həcmi 2019-cu il ilə müqayisədə 26 faiz, nağdsız hesablaşmaların həcmi isə 34 faiz artıb. Ölkədə elektron ticarət vasitəsilə aparılan əməliyyatların sayı 55 faiz, həcmi isə 22 faiz artıb.

Təmassız ödənişlərin sayı və həcmi isə 2019-cu ilin göstəricilərini müvafiq olaraq 4,3 və 5,4 dəfə üstələyib.

Mərkəzi Bank qalibləri təbrik edir və bütün bankları müasir dövrümüzdə zəruriliyi daha da aktuallaşan təmassız texnologiyaların və rəqəmsal ödəniş imkanlarının artırılması, elektron bankçılığın inkişafı, bank müştərilərinin yaradılmış imkanlardan daha geniş istifadəyə cəlb edilməsi istiqamətində fəaliyyətlərində aktiv olmağa çağırır.

1 milyon manat sərmayə ilə yeni logistika şirkəti yaradıldı

İqtisadi yeniliklər və yaradılan yeni iqtisadi mühit geniş imkanlar açır.

Azərbaycanda yeni logistika şirkəti yaradıldı. Bu şirkətin adı "Səmayə Logistic" Məhdud Məsuliyyətli Cəmiyyətdir. Yeni şirkətin nizamnamə kapitalı 1 000 000 manatdır, qanuni təmsilçisi isə Zərbəliyev Vasib Böyükağa oğludur.

35 milyon manatlıq "Füzuli Airport" şirkəti təsis edildi



Azərbaycanda "Füzuli Airport" MMC dövlət qeydiyyatına alınıb.

Bu şirkətin nizamnamə kapitalı 35 000 350 manatdır.

"Fuzuli Airport" MMC-nin hüquqi ünvanı Bakı şəhəri, Xəzər rayonu, Binə qəsəbəsi, Mərdəkan prospekti, ev 21 ünvanıdır.

Azərbaycan ekoloji təsirinə görə böhran dövrü yaşayan qlobal avtomobil sənayesinin yenidən dirçəlişi üçün öz qəti sözünü deməyə qadirdir

Məlumdur ki, qlobal avtomobil sənayesi hava çirkliliyi və qlobal iqlim dəyişiklikləri problemləri ilə əlaqədər çox ağır krizis dövrü yaşamaqdadır. 2015-ci ilin dekabrında Paris şəhərində 195 ölkə nümayəndələrinin qəbul etdikləri ilk qlobal və qanuni olaraq məcburi olan Qlobal İqlim Sazişinə imza atıldı. 21-ci əsrin ilk böyük çoxtərəfli müqaviləsi olan Sazişdə hökumətlər tərəfindən qlobal istiliyin orta səviyyəsinin 2 dərəcədən aşağı səviyyədə qalması və artımın 1,5 dərəcəyə qədər məhdudlaşdırılması, iqlim dəyişikliyinin risk və təsirlərinin əhəmiyyətli dərəcədə azaldılması barədə uzun müddəti əhatə edəcək qərar qəbul edilmişdir. Sazişdə ətraf mühitin çirklənməsinin pik həddə çatmaması üçün

ən uyğun texnologiyaları ən qısa müddətdə tətbiq edərək, tullantıların vaxt itirmədən azaldılması tələb edilir.

Müasir dövrdə ətraf mühitin həddindən artıq çirklənməsi və yer kürəsi temperaturunun günü-gündən yüksəlməsi ilə bağlı meydana çıxan problemlər, dünya enerji istehsalı payında 90%-dən çox yeri olan neftdən istehsal edilən karbohidrogen tərkibli (CxHx) yanacaqların yerüstü, dəniz və hava nəqliyyatının, traktorların və iş maşınlarının daxili yanma mühərriklərində, qaz turbinlərində və təbii qazla işləyən elektrik stansiyalarında tətbiq edilən mövcud yanma metodunun təkmilləşdirilməsini tələb edir. Bu güc qurğularında tətbiq edilən mövcud yanma mexanizminin xüsusiyyəti, yanmadan öncə yanacaqla havanın bir-birinə mümkün olduqca homogen (bircinsli) qarışdırılmasına üstünlüyün verilməsidir. Homogen yanacaq-hava qarışığının həm benzin, həm də dizel mühərriklərində tətbiq olunma şərtinin bünövrəsi zəncirvari yanma reaksiyaları mexanizminin kəşfinə görə Nobel mükafatına layiq görülmüş akademik N.Semyonovun hal-hazırda adını daşıyan Rusiya EA Kimyəvi Fizika İnstitutu (İXF) tərəfindən qoyulmuşdur. Təxminən 70-75 il əvvəl SSRİ Elmlər Akademiyası ilə Dövlət Elm Texnika Komitəsinin hökumət qarşısında əsaslandırılmış təklifləri ilə dünyada ilk dəfə olaraq Elmi Kəşflərin qeydiyyatını aparmaqla müəllif hüquqlarının qorunmasına qərar verilmişdir. SSRİ-nin süqutuna qədər 375 ədəd elmi kəşflər qeydiyyata alınmışdır. Bunların arasında İXF əməkdaşı, t.e.d. L.A.Qussak tərəfindən "Лавинная активация горения", qısaca olaraq "LAQ-Proses" adlandırılan elmi kəşf №142 ilə 1952-ci ildə qeydiyyata alınmışdır. Bu kəşfə görə mühərrikin silindrinə daxil olan hava və yanacağın bir-biri ilə mümkün qədər homogen qarışdırılması vacib olmaqla, ancaq elektrik şamının ətrafında həcmi yanma kamerasının həcminin 2-3%-indən çox olmayan kiçik bir əlavə kamerada (forkamerada) təxmini 50% havası olan zəngin qarışığın yer alması əsas şərt olaraq qəbul edilmişdir. Zəngin qarışığın şamla yandırılması ilə əmələ gələn kimyəvi aktiv natamam yanma məhsulları – atom və radikallardan ibarət olan forkamera məşəli yanma kamerasındakı kasıb homogen hava-yanacaq qarışığının alışdırılmasına imkan verir. Bununla da benzin mühərriklərinin də dizellər kimi kasıb tərkibli qarışıqla işləməsi təmin edilərək, yanacaq qənaətliliyinin artırılması və o zaman ən ziyanlı işlənmiş qaz sayılan dəm qazının (CO) minimuma qədər azaldılması mümkün olmuşdur.

Keçən əsrin 70-ci illərindən başlayaraq ZİL və QAZ markalı benzinlə çalışan yük və minik avtomobillərinin yanacaq sərfini azaltmaq məqsədi ilə "LAQ-Proses"dən istifadə etmək üçün Sovet dövlətinin qərarı ilə müxtəlif layihələr həyata keçirilmiş, lakin bu çalışmalarla istənilən nəticələri əldə etmək mümkün olmamışdır. Bunun əsas səbəblərdən biri kiçik həcmli forkameranı zəngin qarışıqla stabil təmin etməyin çətin olması, ikinci əsas səbəbi isə ana yanma kamerasında yanacaqla havanın bir-birinə homogen qarışdırılmasının tələb olunmasıdır.

1964-cü ildə namizədlik, 1981-ci ildə isə doktorluq dissertasiyalarımın mövzusuna uyğun olaraq mühərriklərdə bu kəşfin tətbiqinə həsr edilən bir çox dərin elmi tədqiqat araşdırmalarımı başa çatdırmaqla "LAQ-Proses" yanma mexanizminin müsbət və mənfi cəhətlərini aşkar etməyə imkanım olmuşdur. Namizədlik dissertasiyamda ilk ixtiram olaraq kiçik həcmli forkameranı zəngin qarışıqla təmin etməyin sadə bir yolu kəşf edilmişdir. Bu haqda Moskvada nəşr edilən "Автомобильная промышленность" jurnalında müəllimim N.Kərimovla birlikdə dərc etdirdiyimiz məqalədə verilən informatik biliklər əvvəlcə Qorki Avtomobil Zavodunun (QAZ), sonra isə İXF institutunun diqqətini çəkmişdi, onlar Azərbaycan Politexnik İnstitutunun (indiki AzTU) "Daxili yanma mühərrikləri" kafedrasını ziyarət edib bizimlə təsərrüfat müqavilələri əsasında ortaq elmi tədqiqat işlərinin aparılmasına razılıq vermişdilər. Bununla da dünyada ilk dəfə "Güc qurğularında yanma və partlamanın nəzəri əsaslarını" yaradan Nobel mükafatlı N.Semyonov, iki dəfə sosialist əməyi qəhrəmanı, azot oksidlərinin (NOx) yaranma mexanizmini kəşf etmiş akademik Y.Zeldoviç, akademiklər Q.Barenblatt və V.Libroviç, professorlar V.Karpov və S.Voinov kimi dünya şöhrətli alimlərin əhatəsi və qayğıkeşliyi ilə, eləcə də L.A.Qussakın Moskvada, İXF-dəki laboratoriyasındadərin elmi-tədqiqat işləri yerinə yetirmək fürsətim oldu. Bu çalışmalarla aşkar edə bildik ki, "LAQ-Proses"də iddia edildiyi kimi, yanma kamerasında yanacaqla havanın bir-birinə homogen qarışdırılması əvəzinə kameranın tam həcmində yer alan havanın təxminən yarısı daxil olmuş yanacağın hamısı ilə qarışdırılaraq zəngin qarışıq yaradılmalı, havanın qalan 50%-i isə yanma başlayanadək yanacaqla əsasən qarışdırılmamış qalmalıdır. Bu halda yanma prosesi iki mərhələdə cərəyan edir: ilk mərhələdə zəngin tərkibli qarışığın yanması nəticəsində tam yanma məhsulları (CO2, H2O) ilə yanaşı, natamam yanma məhsulları da (CO və H2) yaranır. Bu məhsullar ikinci mərhələdə hava ilə qarışaraq yanma prosesini sürətlə davam etdirir. Bu yolla gerçəkləşdirilən yanma prosesi yanma sürəti və təzyiqinin 12-15% artmasına səbəb olur. Eyni zamanda, yanacaqdan ayrılan istiliyin miqdarı 96-98% səviyəsinədək yüksəlməklə birlikdə (homogen qarışıq yandıqda 88-92%-dən çox olmur) ziyanlı qaz emissiyası, xüsusi olaraq azot oksidlərin (NOx) yaranma miqdarı minimum həddə olur.

İXF-də əldə etdiyimiz yeni tədqiqat bilgiləri əsasında ilk ixtiramız bir qədər genişləndirilərək, Sovet Elm-Texnika Komitəsinin qərarı ilə ABŞ (№3.682.146, №4.250.852), İngiltərə (№1.336.797, №1.546.932), Fransa (№71.08933, №76.22531), Yaponiya (№49-41207, №56-36285), İtaliya (№ 922.963, № 1.070.974) və Almaniyada (№2.109.775, №1.631.762) AzPİ, İXF və QAZ-ın adından patentləşdirildi. Patentlər elan olunar-olunmaz, bu əqli mülkiyyəti satın almaq üçün ABŞ avtomobil nəhəngi FORD və Avstriyanın AVL şirkətləri qapımıza qədər gəldilər.

Bu ixtiramızla bağlı daha dərin elmi bilgilər əldə etmək məqsədilə Sovet ETK-nin qərarı ilə Varşavaya - Polşa Elmlər Akademiyası ilə Varşava Texniki Universitetinin nəzdində fəaliyyət göstərən "Termodinamika və Yanma" ET İnstitutuna elmi ezamiyyətə göndərildim. Burada mənə göstərilən səmimi əməkdaşlıq şəraitində yanma kamerasının müxtəlif fiziki modelləri ("bomba"), müasir həssas təzyiq sensorları ve osiloskop, alovun yayılmasını göstərən Şileren – sürətli fotoqraf cihazı və s. istifadə olunaraq İXF-də aldığım nəticələri təsdiq etmək üçün ətraflı araşdırma imkanım oldu. Bu tədqiqatlarla zəngin qarışığın kamerada yer aldığı həcm nisbətinin, başqa sözlə, qarışığın təbəqələşdirilmə dərəcəsinin yanma sürəti və təzyiqinin dəyişməsinə, çirkləndirici və ziyanlı qaz tullantılarının yaranmasına təsirini müəyyənləşdirə biləcək bir sıra təcrübələr apararaq, təbəqələşdirilmiş yanıcı qarışığın yanma mexanizminin elmi əsaslarını ortaya çıxara bildim.

1981-ci ildə Leninqrad Texniki Universitetində ittifaqın yalnız "İstilik mühərrikləri" mövzusunda texnika elmləri doktoru elmi dərəcəsi verən Elmi Şurasında yeni yanma mexanizminin elmi əsaslarını və QAZ-da istehsal edilmiş ilk prototip mühərrikin test nəticələrini elə L.A.Qussakın iştirakı ilə 2-yə qarşı 19 səslə müdafiə etdim. Bununla da mühərrikin yanma odasında homogen yanacaq-hava qarışığının yerinə təbəqələşdirilmiş qarışıqdan istifadə etməyin həm yüksək performans və yanacaq qənaətliliyi əldə etmək üçün, həm dəekoloji çirklənməyə səbəb olan ziyanlı qazların emissiyasının azaldılması üçün daha təsirli olduğu təsdiqlənmiş oldu. Akademik Y.B.Zeldoviç mənə bağışladığı kitabında elmi nəticələrimizi bu sözlərlə dəyərləndirmişdir: "Рафику Исрафиловичу с любовью и уважением! У докторов наук подобные труды должны быть настольными. Подпись, 03.11.81".

Məlum olduğu kimi, xalqımızın ümummilli lideri Heydər Əliyev Respublikamızda avtomobil sənayesinin yaradılması üçün uzun müddət mübarizə aparmış və Sovet İKP Siyasi Bürosunun qərarı ilə Gəncə Avtomobil Zavodunun qurulmasına nail olmuşdur. Bu dövrədək Gürcüstan (Kutaisi AZ) və Ermənistanda (ErAZ) avtomobil istehsal edən zavodların fəaliyyət göstərməsinə baxmayaraq, dünyada ilk dəfə nəqliyyat vasitələri üçün motor yanacaqları istehsal edən Azərbaycanda, bu yanacaqlarla işləyən nəqliyyat vasitələri istehsal edən zavodların yaradılmasına imkan verilməmişdir. O zamankı Sovet Avtomobil Sənayesi Nazirinin birinci müavini Başıncakyanın guya Azərbaycanda avtomobil istehsalı üçün lazımı elmi-texniki və mühəndis kadrlarının olmadığı bəhanəsinə, AzTU "Daxili yanma mühərrikləri" kafedrası əməkdaşlarının yuxarıda qeyd edildiyi kimi, İXF və QAZ ilə birlikdə qazandığımız elmi-texniki nailiyyətləri və Sovet Dövlətinin avtomobil sənayesi ilə bağlı əldə edilmiş ilk və son patentləri cavab olaraq göstərilmişdir. Təəssüf ki, ixtiranın Amerika və Avropanın avtomobil sənayesi sektorlarında yer almaq imkanı da Başıncakyan tərəfindən "biz özümüz istehsal etməyə qadirik" iddiası ilə rədd edilmişdi. Məlum olduğu kimi, Sovet Dövlətinin süqutu ilə inşası bitməkdə olan Gəncə Avtomobil Zavodu fəaliyyətə başlaya bilməmiş və 1992-ci ildə 120 min ədəd avtomobil istehsalı proqramı yarı yolda qalmışdır.

Ulu Öndərimiz Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqtan sonra fürsətçilərin Respublikanın hər yerində qarışdırdığı həyatı normal axarına döndərmək üçün gərgin fəaliyyətə başladığı zaman mənə etimad göstərərək AzTU-ya rektor vəzifəsinə təyin etdi. Respublikamızın ağır dövründə məsuliyyətli vəzifə borcumu yerinə yetirməklə bərabər, avtomobil sənayesinin bərpası ilə əlaqədar yarı yolda qalmış çalışmalara başlamaq üçün fəaliyyətimi genişləndirməli oldum. İlk olaraq qonşularımız – qardaş Türkiyə ve İranın avtotraktor sənayesi firmaları ilə tanış olaraq bu firmalardan yararlanma imkanlarını araşdırdım. Bəlli oldu ki, xarici firma lisenziyaları əsasında fəaliyyətə başlamış Türkiyə və İran müəssisələrində istehsal edilən avtotraktorlar, müasir dövrün texniki səviyyəsindən çox geridə qalmış motor texnologiyasına sahibdir. Bu halda qazandığımız elmi nailiyyətləri qardaş ölkələrdə tətbiq etməyin lazım olduğunu vacib bilərək Türkiyədə İstanbul Texnik Universiteti (İTÜ) və Orta Doğu Texnik Universiteti (ODTÜ), sənaye mərkəzləri: FORD-OTOSAN və TOFAŞ, İranda Təbriz Texniki Universiteti, senaye mərkəzləri: Motor Sazan, Traktor Sazi, Meqa Motor firmalari ilə müştərək görüşlər, seminar və konfranslar keçirərək istehsalda olan mühərriklərin modernizasiyası ilə məşğul olmaq haqqında ortaq layihələr həyata keçirməyə başladıq. O zamankı Türkiyə Prezidenti möhtərəm Süleyman Dəmirəlin təklifi və dəstəyi ilə Qara Dəniz ölkələri universitetleri birliyi yaradıldı və AzTU da bu birliyin üzvü olaraq Sovet dönəmində VAZ (Tolyatti) zavodu ilə yarı yolda qalmış motor layihəmizi TOFAŞ və DAÇİA (Rumıniya) firmalarının istehsal etdikləri mühərriklərin təkmilləşdirilməsinə yönəldərək ortaq çalışmalara başladıq. Təəssüf hissi ilə bildirməliyəm ki, rektor olaraq qardaş ölkələrin universitet və sənaye mərkəzləri ilə ortaq elmi əməkdaşlıq əsasında yeni motor texnologiyası yaratmaq kimi işlərlə məşğul olmaq səlahiyyətli şəxslərin o qədər də xoşuna gəlmirmiş. Görünür bu şəxslər universitetin funksiyasına yad olan başqa fəaliyyətlərlə məşğul olmağımı istəyirlərmiş. Heç yadımdan çıxmaz; 1999-cu ilin sonuna yaxın Qara Dəniz ölkələri universitetleri birliyinin Rumıniyada keçirilmiş toplantısında iştirak etmək məqsədilə İstanbuldan Buxarestə uçmaq üçün hava limanına gedərkən Türkiyə səfirimiz mənə zəng edərək, Prezident Aparatının Humanitar Şöbəsinin tapşırığı ilə vaxt itirmədən Bakıya geri dönməyimin vacib olduğunu dedi. Mən də həmin an təyyarə reysimi dəyişərək Bakıya qayıtdım. İki-üç gündən sonra televiziyada olan axşam saat 20:00 xəbər buraxılışından öyrəndim ki, AzTU-ya rektor olaraq təəssüf ki, hələ professor rütbəsinə çatmamış bir əməkdaşımız təyin olunmuşdur. Ertəsi günü Humanitar Şöbə müdiri universitetə gələrək mənim və bütün prorektorlarımızın istefa ərizələrini yazdıraraq yeni rektoru kürsüsünə əyləşdirdi. Beləliklə də sərbəstlik qazanaraq ən sevdiyim işləri icra etmək üçün qollarımı daha geniş çırmalamalı oldum.

Türkiyə Respublikası Müdafiə Sənayesi Nazirliyi və İstanbul Texniki Universitetinin birgə dəvəti əsasında ulu öndərimizin "Bir millət, iki dövlət" və "Güclü Türkiyə güclü Azərbaycan deməkdir" ideyalarını rəhbər tutaraq (yeri gəlmişkən, möhtərəm Prezidentimiz İlham Əliyev sayəsində II Qarabağ müharibəsində qazanılmış möhtəşəm Qələbə ideya sahibinin nə qədər uzaqgörən olduğunu bir daha təsdiqlədi) 2001-ci ildən 20 il boyunca Türkiyədə fəaliyyət göstərərək, avtomobil ve motor sənayesi üçün yerli elmi texniki mütəxəssis və mühəndislərin hazırlanmasında, lisenziya vaxtı bitmiş xarici ölkə texnologiyalı avtotraktor motorlarının modernləşdirilməsi və yeni nəsil mühərriklərin yaradılması mövzularında bir çox dövlət dəstəkli elmi-tədqiqat layihələrini yerinə yetirmə fürsətim oldu. Elə möhtərəm Prezidentimiz İlham Əliyevin cəsarətli və əzmkar fəaliyyəti sayəsində Bakı-Tiflis-Qars dəmir yolunun istifadəyə verilməsi, müasir İpək Yolunun dəniz və dəmir yolu marşrutlarında çalışacaq lokomotiv və gəmilər üçün daha əlverişli və işlənmiş qazları az zərərli olan ağır dizel motorlarının modernləşdirilməsi ilə bağlı dövlət əhəmiyyətli layihələrin elmi tədqiqat işlərinə rəhbərlik etmək üçün fəaliyyətə başladım. Model və prototip çalışmalarımızla yeniliyi və faydası dünya səviyyəsində qəbul edilərək, 300-dən çox Avropa, Yaponiya və Amerikada dərc edilmiş məqalələr və 10 ədəd Türkiyə patentləri ilə qorunan bu layihələrin təəssüf ki, kütləvi istehsalı böyük investisiya tələb etdiyi üçün bir qədər gecikəcəkdir.

(ardı gələn sayımızda)

Rafiq MEHDİYEV, Beynəlxalq Şərq Neft Akademiyasının (Azərbaycan) və Beynəlxalq KEYS Akademiyasının (ABŞ) həqiqi üzvü, Beynəlxalq Avtomobil Mühəndisləri Cəmiyyətinin - SAE (ABŞ) üzvü, t.e.d., prof.

Rafiq Mehdiyev Sovetlər dövründə Azərbaycan xalqına elmi-texniki tərəqqini bəxş etmiş Azərbaycan mühərrikçilər üzrə elmi məktəbin əsasını qoyanlardan biridir. O, 1936-cı ildə Cəbrayıl rayonunda anadan olmuşdur. 1958-ci ildə o zamankı Azərbaycan Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universiteti) mexanika fakültəsini bitirib, 1964-cü ildə namizədlik, 1981-ci ildə isə indiki Sankt-Peterburq Texniki Universitetində doktorluq dissertasiyasını müdafiə etmişdir. 300-dən çox dəyərli elmi əsərin, 15-ə yaxın tətbiq edilən ixtiranın müəllifidir. Görkəmli alimin son ixtiralarından biri maye qazla işləyən dizel mühərrikidir. Bu ixtira Türkiyədə böyük uğur kimi qarşılanmışdır. Onun bir sıra ixtiraları bir çox Qərb dövlətlərində, o cümlədən İngiltərə, İtaliya, Almaniya, Rusiya və Yaponiyada patentləşdirilmişdir. O, fəaliyyət göstərdiyi sahədə təkcə qardaş Türkiyədə deyil, eləcə də ABŞ, Almaniya, İtaliya, Fransa, Rusiya, Hindistan və digər ölkələrdə dərin hörmətə layiq bir azərbaycanlı alim kimi tanınır.

Moody's: Экономика Азербайджана в этом году вырастет на 4%



Международное рейтинговое агентство Moody's Investors Service прогнозирует рост экономики Азербайджана в этом году примерно на 4%.

Этот прогноз выше ожиданий главных международных организаций (ООН, Всемирного банка) и международных кредитных агентств (Standard and Poor's и Fitch Ratings).

Напомним, рейтинговое агентство S&P Global Ratings прогнозирует рост ВВП Азербайджана в этом году на 2,1%, Всемирный банк - на 1,9%, ООН - на 2%.

В 2020 году производство ВВП в стране сократилось на 4,3%.

Парламент Италии потребовал предоставить Азербайджану карты минных полей

Постоянная комиссия по иностранным делам нижней палаты парламента Италии приняла резолюцию о выполнении договоренностей между Арменией и Азербайджаном.

В документе содержится призыв к сторонам предпринять конструктивные действия для содействия операциям по разминированию в освобожденных районах Азербайджана, и в этой связи предлагается предоставить карты заминированных районов.

В резолюции говорится, что азербайджанская сторона выполнила свои обязательства по трехстороннему заявлению, вернула всех армянских военнопленных, взятых до и во время войны.

В документе содержится призыв к правительству Италии поддержать инициативы ООН, ОБСЕ и Европейского Союза по полной реализации Заявления от 9 ноября 2020 года и призвать к освобождению всех военнопленных.

Правительству Италии также было поручено работать с правительствами обеих стран на двустороннем уровне для продвижения мер по укреплению доверия для установления будущего мира между Арменией и Азербайджаном.

В то же время итальянскому правительству поручено призвать стороны к конструктивным действиям для облегчения операций по разминированию и предоставить карты минных полей.

В Азербайджане более 300 тысяч человек прошли вакцинацию

2 марта в Азербайджане от коронавирусной инфекции были вакцинированы 20 903 человека, сообщает Оперативный штаб при Кабмине.

Согласно информации, на сегодняшний день в Азербайджане вакцинировано 313 582 человека.

Коронавирусом в мире болеют уже 115 миллионов человек

Число инфицированных коронавирусом (COVID-19) в мире достигло 115 299 924 человек, сообщает Worldometers.info.

По данным проекта, за отчетный период времени в США выявлено 29 370 705, в Индии – 11 139 516, в Бразилии – 10 647 845 заразившихся.

Согласно порталу, от осложнений, вызванных COVID-19, скончались 2 560 602, а выздоровели 91 117 436 человек.

Впервые в Азербайджане – мобильный интернет в море!

Компания Bakcell стала первым мобильным оператором в Азербайджане, начавшим предоставлять услуги мобильного интернета не только на материковой части страны, но и в море.

Так, на основе соглашения о предоставлении услуг мобильного интернета, подписанного с одной из крупнейших нефтяных компаний, работающих в стране, на начальном этапе мобильный интернет Bakcell стал доступен на 4 морских судах и 1 нефтяной платформе.

«Мы делаем все возможное, чтобы наши клиенты пользовались лучшей мобильной сетью в Азербайджане, и получали высочайшее качество клиентского опыта. Благодаря этому проекту, работники судов и нефтяных платформ смогут всегда оставаться на связи со своими семьями, работая в море в течение длительного времени. Bakcell продолжит улучшать свою сеть и качество услуг, чтобы предоставлять нашим розничным и корпоративным клиентам лучший клиентский опыт на рынке. Наша основная миссия – заботиться о наших клиентах таким образом, чтобы в полной мере удовлетворять их потребности в услугах мобильной связи», - отметил Главный исполнительный директор Bakcell г-н Райнер Раттебер.

Венгрия заинтересована во включении азербайджанского газа в будущий энергобаланс страны

Двусторонние отношения между Азербайджаном и Венгрией, которые носят как стратегический, так и дружественный характер, создают прочную основу для развития экономического сотрудничества двух стран, сказал Trend посол Венгрии в Азербайджане Виктор Седеркеньи.

«Накануне пандемии нам удалось в феврале 2020 года провести 7-е заседание Совместной межправительственной комиссии по экономическому сотрудничеству, которое определило приоритетные направления на ближайшие годы. Несмотря на трудности, нам удалось сохранить уровень товарооборота между нашими странами в прошлом году, но очевидно, что все еще существует огромный потенциал для расширения двусторонней торговли, поэтому он может отражать высокое политическое значение, которое мы придаем партнерству с Азербайджаном",- сказал посол Венгрии.

В прошлом году, отметил Седеркеньи, объемы инвестиций Венгрии в Азербайджан составили почти 1,5 миллиарда долларов, что является историческим показателем.

«Венгерская MOL Group стала третьим по величине акционером нефтяного месторождения АЧГ и трубопровода Баку-Тбилиси-Джейхан. Я считаю, что это сотрудничество может расшириться на новые области. Кроме того, венгерские фармацевтические бренды, такие как Gedeon Richter и EGIS, хорошо известны в Азербайджане уже на протяжении десятилетий, и популярные здесь энергетические напитки HELL также являются венгерскими продуктами», - сказал Седеркеньи.

Он также добавил, что Венгрия нацелена на реализацию совместных с Азербайджаном проектов, которые принесут взаимную выгоду обеим странам.

«Венгерские компании уже задействованы в проектах в сельском хозяйстве и ИТ-секторе Азербайджана, мы также уделяем особое внимание таким областям, как интеллектуальные/зеленые городские решения, энергоэффективность и управление водными ресурсами, где венгерские компании предлагают инновационные технологии и ноу-хау, которыми они готовы поделиться», - добавил посол Венгрии.

«Помимо наших инвестиций в нефтяную промышленность, Венгрия заинтересована во включении азербайджанского газа в наш будущий энергетический баланс. Это было подтверждено министром иностранных дел и внешней торговли Венгрии Петером Сийьярто на 7-м заседании Консультативного совета Южного газового коридора на уровне министров 11 февраля. Мы приветствуем успешное завершение строительства Южного газового коридора, которое положительно сказывается на энергетической безопасности Европы», - сказал он.

Минирование Арменией территорий Азербайджана - высшая степень подлости - израильский эксперт

Война закончилась и надо уметь достойно проигрывать, а это означает, что Армения должна передать Азербайджану карту заминированных территорий.

Об этом сказал Trend во вторник израильский юрист, специалист по международному праву и международной политике Михаил Финкель.

"Минировать детские площадки, кладбища, дороги, обочины дорог и любые места, на которых могут подорваться, погибнуть или получить ранения невинные люди, гражданское население, дети, туристы из других стран, является подлостью из подлостей, актом терроризма, нарушением Женевской конвенции и всех протоколов, грубейшим нарушением международного права", - сказал он. Финкель отмечает, что, похоже, что в словаре руководящих политиков Армении нет таких слов, как достоинство и честь. "Видимо, эти слова и термины им незнакомы. Они потратили 350 миллионов долларов, чтобы заминировать земли в Карабахе. Это те самые деньги, которые они не дали своим старикам на пенсии, матерям-одиночкам, инвалидам, не потратили на развитие здравоохранения, не вложили в улучшение жизни собственного народа. Но потратили их на это подлое минирование", - сказал он.

Эксперт подчеркивает, что на сегодня основная задача - разминировать территории, решить эту проблему, созданную проигравшей и отступившей армянской стороной.

"Верю, что руководство Азербайджана применит лучшие в мире технологии, чтобы сделать это. Израиль обладает самыми передовыми и самыми уникальными технологиями по разминированию, которых нет ни у кого в мире, даже у армии США, и мы с радостью готовы кооперироваться в этом направлении с братским Азербайджаном", - заключил он.

Россия изучает опыт КНР по созданию систем квантовой связи

Проект "Россия-Китай: Главное". Эксперты российского проекта "План 5-100" рассказали ИА Sputnik, что Россия изучает передовой опыт Китая по разработке систем квантовой связи. Россия приняла дорожную карту развития квантовой связи в 2020 году. На первом этапе будет реализован проект экспериментальной квантовой магистрали Москва--Санкт-Петербург протяженностью 800 километров. Пилотный участок линии будет введен в эксплуатацию уже в 2021 году.

Директор Центра компетенций НТИ "Квантовые коммуникации" при МИСиС Юрий Курочкин рассказал: "Сегодня Китай является лидером в области квантовой коммуникации и создал сложную квантовую сеть, в том числе 2000 километров международной сети, тысячи километров городских сетей и средств спутниковой связи. Проекты квантовых сетей есть и в России, и в ЕС, и в США, но они находятся на начальной стадии. Кроме того, Китай в настоящее время является первой и единственной страной со спутниковой квантовой защищенной связью".

“Azərişıq”: Qarabağda qurulacaq Ağıllı Şəbəkələrdə texniki uçuş aparatlarından istifadə ediləcək

“Azərişıq” Açıq Səhmdar Cəmiyyəti (ASC) Ağıllı Şəbəkələr konsepsiyasının həyata keçirilməsində daha bir yenilik edir. Kommunal sferada ilk dəfə xüsusi təyinatlı uçuş aparatları “Azərişıq” ASC tərəfindən tətbiq olunur.

ASC-dən bildirilib ki, Ağıllı Şəbəkələr konsepsiyası tamamilə müasir və innovativ texnologiyaların istifadəsi üzərində qurulub. Bu konsepsiya çərçivəsində artıq reallaşdırılmış müasir tipli mühafizəli və izolyasiyalı yüksəkgərginlikli xətlərinin, 3D-mobil xəritəçilik sisteminin, məsafədən optik portla elektrik sayğaclarının oxunması və mövcud idarəetmə platformasına inteqrasiya işləri uğurla davam etdirilir.

Rəqəmsal idarəetməyə keçid proqramı istiqamətində aparılan genişmiqyaslı tədbirlər sırasına xüsusi təyinatlı uçuş aparatları ilə hava elektrik veriliş xətlərinə (HEVX) kompleks və lokal baxış keçirilməsinin təşkili də əlavə edilmək üzrədir. Belə ki, ASC-nin Tədris və İnnovasiyalar Mərkəzində “Şəbəkə qüsurlarının aşkar edilməsində yüksək texnologiyaların tətbiqi” üzrə təlim-tədris kursuna start verilib. Bu tip pilotsuz uçuş aparatları sadə foto-video çəkilişləri üçün nəzərdə tutulan dronlardan xeyli fərqlənir. Bu səbəbdən də onlara xüsusi təyinatlı texniki uçuş aparatları adı verilib. Belə kameralar 360 dərəcəlik panorama, infraqırmızı spektrdə və temperatur göstəricilərinin vizuallaşdırılması rejimlərində çəkiliş apara bilir. Bundan əlavə, xüsusi yaxınlaşdırma (zoom) funksiyası 25-30 metr məsafədən kiçik ölçülü zədələnmələri belə müəyyən etməyə imkan verir.

“Şəmkir” su elektrik stansiyasının su anbarı qəzalı vəziyyətdən çıxarılır

Ölkənin ikinci böyük su elektrik stansiyası olan “Şəmkir” SES-in su anbarında yaranan təhlükəli problemin aradan qaldırılması istiqamətində “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti (ASC) təxirəsalınmaz işləri davam etdirir.

ASC-nin mətbuat xidmətindən verilən məlumata görə, 40 il əvvəl tikilən su anbarının daşmaması, yağıntı zamanı yığılan artıq suyun buraxılaraq suyun səviyyəsinin tənzimlənməsi üçün tikilmiş sutullayıcı qurğu 2003-cü ildən bəri qəzalı vəziyyətə düşüb. Çünki hər biri 160 metr uzunluqda olan üç bloklu yeraltı su tunelinin döşəməsində, tavanında, orta aşırımında, çıxış başlıq hissəsində, istinad divarlarında aşınmalar və çatlar əmələ gəldiyindən və beton qatları qırıldığından güclü su sızması hər an qurğunun uçmasına və daşqına səbəb ola bilərdi. Buna görə də, ötən ildən başlayaraq sutullayıcı qurğuda təmir işlərinə başlanılıb. Bu çətin və xüsusi dəqiqlik tələb edən iş “Azərenerji” mütəxəssisləri ilə yanaşı, yerli şirkət tərəfindən həyata keçirilir. Hazırda sutullayıcı qurğunun giriş başlığında, hər 3 tunelin içərisində və qurğunun genişləndirilmiş çıxış hissəsində yenidənqurma, bərkitmə, betonlama və təmir işləri aparılır və işin 90 faizi görülüb. İşlərin bu

ilin aprel ayında yekunlaşdırılması nəzərdə tutulub.

Bununla yanaşı, “Şəmkir” su elektrik stansiyasının hidroaqreqatlarında təmir-bərpa işləri aparılıb və 2 saylı hidroaqreqatın ehtiyat hissələri dəyişdirilib, 330 kilovoltluq blok avtotransformatoru əsaslı təmir olunub. Bununla “itirilmiş” güc bərpa olunaraq dayanıqlılıq və etibarlılıq artırılıb. Planlaşdırılan işlər çərçivəsində “Şəmkir” SES-in açıq paylayıcı qurğusunun, təsirlənmə və SCADA dispetçer idarəetmə sistemlərinin, tezliyin, o cümlədən aktiv gücün avtomatik tənzimlənməsinin yenidən qurulması planlaşdırılıb.

Bakıda ilk bio-smart dayanacaq quraşdırılıb

Bakı Nəqliyyat Agentliyindən verilən məlumata görə, sərnişinlərin rahatlığını və təhlükəsizliyini təmin etmək məqsədilə ictimai nəqliyyat infrastrukturu, o cümlədən də avtobus dayanacaqlarının yenidən qurulması daim diqqətdə saxlanılır.

Son beş ildə paytaxtın inzibati ərazisində 432 ədədi pavilyon, 409-u məntəqə tipli olmaqla ümumilikdə 841 dayanacaq quraşdırılıb. 1191 dayanacaq təmir edilərək sərnişinlərin istifadəsinə verilib. Nəticədə dayanacaqların 42%-i yenilənib, şəhər üzrə ümumi dayanacaq tələbatının 90,1%-i təmin edilib. İctimai nəqliyyat infrastrukturunun yenilənməsi zamanı informasiya texnologiyalarının imkanlarından da istifadə olunur.

Bu çərçivədə Bakı şəhərində bio-smart avtobus dayanacaq pavilyonlarının quraşdırılmasına başlanılıb. İlk belə dayanacaq pavilyonu Heydər Əliyev Mərkəzinin yaxınlığında quraşdırılıb.

Pavilyon günəş enerjisi ilə çalışır. Burada dezinfeksiya duşu quraşdılıb ki, bunun sayəsində də müəyyən olunan vaxt aralığında avtomat rejimdə dərman məhlulu səpilir.

Mobil qurğular üçün enerji portlarının olduğu pavilyonda “BakıKart” ödəmə terminalı da var.

Tikinti-quraşdırma işlərində istehsalçı qiymət indekslərində artım olub

Ötən ilin dördüncü rübündə tikinti-quraşdırma işlərində istehsalçı qiymət indeksləri üçün-

cü rüblə müqayisədə 100,3 faiz, o cümlədən yerüstü tikililər üzrə 100,1 faiz, yol və körpü tikintisi üzrə isə 101,5 faiz təşkil edib.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, həmin müddət ərzində yaşayış evləri üzrə qiymət indeksi 99,8 faiz, sosial təyinatlı binalar üzrə 100,2 faiz, inzibati tikililər üzrə 100,7 faiz, ümumtəhsil məktəbləri üzrə 100,1 faiz, istehsal təyinatlı obyektlər üzrə 101,2 faiz, sənaye obyektləri üzrə isə 101,2 faiz olub.

AZƏRBAYCAN BEYNƏLXALQ NƏQLİYYAT-LOGİSTİK MƏRKƏZƏ ÇEVRİLƏCƏK

Hər bir ölkənin iqtisadi gücünün və siyasi çəkisinin artmasında bir çox digər amillərlə yanaşı, nəqliyyat-logistika məsələləri də mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Avropanın və Asiyanın qovuşduğu məkanda yerləşir. Məhz bu cür əlverişli məkanda yerləşməsi yüklərin və əmtəələrin daşınmasında ölkəmizə böyük üstünlüklər qazandırır. Son illər aparılan düzgün və praqmatik siyasət Azərbaycanın bu sahədə mövqelərinin möhkəmlənməsinə gətirib çıxarmışdır. Azərbaycan beynəlxalq logistik mərkəzə çevrilir və bu istiqamətdə işlər genişləndirilir Bu gün Azərbaycanda region və dünya üçün vacib olan bir sıra transmilli layihələr icra olunur. Bunlardan biri də “Şimal-Cənub nəqliyyat dəhlizi”dir. Bu, Asiyanı Azərbaycan və Rusiya vasitəsilə Avropaya birləşdirən mühüm marşrutdur. Layihənin icrası Asiyanın bir çox ölkələrinin Avropa ilə ticarət əlaqələrini həm genişləndirəcək və həm də sürətləndirəcək. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu layihənin təşəbbüskarı eləcə də qəbul edilən qərarların əsas icraçısı Azərbaycan Respublikasıdır. Prezident İlham Əliyev Avropa İnkişaf Bankının (AİB) rəhbəri ilə keçirilən videokonfransla onların diqqətini “Şimal-Cənub nəqliyyat dəhlizi”nin əhəmiyyətinə cəlb edərək demişdir: “Azərbaycan bu dəhlizə artıq böyük həcmdə sərmayə yönəltmişdir. Onun çox böyük potensialı var. Biz artıq şimaldan – Rusiyadan daxil olan, Azərbaycan ərazisindən keçən qərb və cənub istiqamətində yükləri qəbul edirik. Lakin İranla sərhəddən Rusiya ilə sərhəddə qədər dəmir yolu xətlərinin vəziyyəti yaxşı deyil. Buna görə də qatarların sürətini artırmaq üçün indi artıq bəzi vəsaiti sərmayə olaraq yatırmışıq və biz bunu etməyi planlaşdırırıq». Daha sonra prezident vurğulamışdır ki, bu gün artıq bizim Rusiya ilə sərhədlərimizdə tıxac var. Çünki Azərbaycandan, həm də İrandan artan ixrac malların artıq yük maşınları ilə gətirilməsini mümkünsüz edir. Buna görə də bizə “Şimal-Cənub dəhlizi”nin bir hissəsi olaraq, müasir dəmir yolu sistemi lazımdır. Gələcək kommunikasiya prosesində ola bilsin digər çağırışlar ortaya çıxsın. Həmin məsələlər də vaxtında və çevik şəkildə həll olunacaqdır. Bugünədək Asiya İn-

kişaf Bankı (AİB) ilə ölkəmiz arasında mövcud olan əməkdaşlıq deməyə əsas verir ki, “Şimal-Cənub nəqliyyat dəhlizi”nin maliyyələşdirilməsində də AİB yaxından iştirak edəcək. Çünki həmin bankın ölkəmizə olan marağı və etimadı böyükdür. Bir daha qeyd edək ki, ölkəmizdə icra edilən bu kimi nəhəng infrastruktur layihələri beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Həmin qurumlar dəfələrlə Azərbaycanda görülən işlərin təkcə ölkəmiz üçün deyil, dünya üçün də böyük əhəmiyyət daşıdığını bildiriblər. Azərbaycanda icra edilən layihələr sayəsində ölkəmiz dünyada nühüm nəqliyyat dəhlizləri – Şərq-Qərb, Şimal-Cənub marşrutlar üzrə önəmli qovşağa çevrilib. İndi bu istiqamətdəgedən bütün yollar Azərbaycanda birləşir. “Şərq-Qərb nəqliyyat dəhlizi”nin yaradılması istiqamətində dövlətimiz tərəfindən vaxtında atılan addımlar öz bəhrəsini verir. Belə ki, ötən il həmin nəqliyyat dəhlizi üzərindən yük daşınması artıb. Çünki Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi bu dəhlizə geniş imkanlar yaradır. Ən başlıcası isə Azərbaycandan keçən həmin dəhliz üzərindən yüklərin təkcə şərq istiqamətindən deyil, eyni zamanda, Rusiya üzərindən Türkiyə və Avropaya daşınması müşahidə edilir. Bir sözlə, “Şərq-Qərb nəqliyyat dəhlizi” ilə yanaşı, “Şimal-Cənub nəqliyyat dəhlizi”nin də işlək əmsalı ildən-ilə yüksəlir. Türkmənistan, Əfqanistan və digər ölkələrin də Azərbaycandan keçən nəqliyyat dəhlizindən istifadə etməsi, həm daşınmasının həcmini, həm də bu marşrutun iqtisadi və siyasi əhəmiyyətini artıracaq. Bu da ölkəmizin iqtisadi inkişafına və beynəlxalq aləmdə nüfuzunun artırılmasına yeni imkanlar açacaq. Türkmənistan və Azərbaycan bu gün Əfqanistan, Gürcüstan, Türkiyə tərəfdaşları ilə birlikdə Asiya və Avropa arasında ən mühüm kontinental marşrutlara çevrilməli olan Lapis-Lazuli nəqliyyat dəhlizinin səmərəli işləməsi üzərində iş aparır. Türkmənistan və Azərbaycan həm də Xəzər dənizi – Qara dəniz nəqliyyat yolu sisteminin yaradılmasının təşəbbüskarlarından biridir.

Məlum olduğu kimi, bu ilin yanvar ayının 21-də Azərbaycan və Türkmənistan arasında Xəzər dənizində “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və istismarı barədə Anlaşma Memorandumu imzalanmışdır. Bu yatağın birgə işlənməsi hər iki ölkə arasında yeni iqtisadi əlaqələrin yaranmasına imkan verəcəkdir. Bu dəhliz təkcə iki ölkəyə deyil, bütün regiona iqtisadi fayda gətirəcəkdir. Prezident İlham Əliyev nəqliyyat və logistika sektorunda həyata keçirilən layihələrin əhəmiyyətindən danışarkən demişdir: *“Türkmənistan və Azərbaycan nəqliyyat infrastrukturunun məhz sıx qarşılıqlı əlaqəli şəkildə işləyən və bizim ərazilərimizdən keçməklə yüklərin tranzitini təmin edən, habelə Azərbaycan ilə Türkmənistan arasında əmtəə dövriyyəsinin imkanlarını artıran müasir beynəlxalq dəniz limanları yaradılması layihələrini bir növ sinxronlaşdırıblar. Əminəm ki, ölkələrimiz arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq bizim rayonda yaranmış yeni şərait və yeni nəqliyyat yollarının açılması imkanları nəzərə alınmaqla daha yüksək səviyyəyə çatacaq. Düşünürəm ki, bu, bizim bütün tərəfdaşlarımız və qonşularımız üçün əlavə imkanlar yaradacaq”.* Dövlət başçısı, həmçinin qeyd etmişdir ki, Türkmənistanla nəqliyyat-logistika sahəsində əməkdaşlıq təkcə iki ölkəyə deyil, regiona, hətta regiondan uzaqda - Avrasiya məkanında yerləşən bütün ölkələrə yeni imkanlar açır. Cənab Prezident İlham Əliyev, eyni zamanda, Türkmənistanın nəqliyyat-logistika sahəsində həyata keçirdiyi investisiya siyasətini yüksək qiymətləndirmişdir. Belə ki, Lapis-Lazuli Türkmənistanın yaratdığı investisiya sayəsində reallaşıb. Bunun nəticəsində Əfqanıstandan yüklərin Türkmənistana, Azərbaycana və digər ölkələrə çatdırılmasına imkan verən dəmir yolu layihəsinin reallaşması Türkmənistanın ayırdığı investisiya ilə həyata keçirilib. Bununla yanaşı, ölkəmizin təşəbbüsü ilə regionda bir sıra üçtərəfli tranzit layihələri gerçəkləşdirilir. Hazırda Azərbaycan, Türkmənistan və Türkiyə, həmçinin Azərbaycan, Türkmənistan və Əfqanıstan arasında üçtərəfli əməkdaşlıq formatı mövcuddur. Bu növ əməkdaşlıq region ölkələri arasında yük dövriyyəsinin həcminin ildən-ilə artmasını şərtləndirir.

İşğaldan azad olmuş ərazilərimizdə yeni nəqliyyat-logistika əməkdaşlıq formatının yaradılması respublikamızın bu sahədə önəmini daha da artıracaq. Altılıq formatda əməkdaşlıq nəzərdə tutulan bu layihədə işğalçı Ermənistanın yer alması ən çox onun özünə yarayacaq. İllərlə apardığı işğalçı siyasət nəticəsində blokada şəraitində yaşayan bu ölkənin “qəfəsdən” çıxması üçün Azərbaycanla əməkdaşlıq etməsi ən yaxşı fürsətdir. Qalan region ölkələri – Türkiyə, İran, Rusiya, Gürcüstan ilə yeni əməkdaşlıq formatına keçidlə bağlı heç bir problem yoxdur. Hazırda Naxçıvana dəhlizin açılması ilə bağlı üç dövlətin – Rusiya, Azərbaycan və Ermənistanın baş naziri müavinləri səviyyəsində işçi qrup fəaliyyət göstərir. Türkiyə və Azərbaycan arasında bu yaxınlarda energetika, mədən sənayesi və digər sahələr üzrə 11 bənddən ibarət əməkdaşlıq sazişi imzalandı. Yeni imzalanan sənədlərlə qardaş ölkə ilə münasibətləriniz bütün sahələrdə mükəmməl formaya qalxacaq, strateji əməkdaşlıq çərçivəsində nəqliyyat-logistika sahəsində də ciddi irəliləyişlər əldə olunacaq. Yuxarıda da deyildiyi kimi, Azərbaycan artıq beynəlxalq logistik mərkəzə çevrilib. **Zaman keçdikcə bu zəncirə daxil olan dövlətlərin sayı artacaq, həmin ölkələrin xalqları sülh və barışın yaşandığı bir rifah məkanına qovuşmaqdan böyük məmnunluq duyacaqlar.**

Zülfü İLYASOV,
bölgə müxbiri



Mən İslam mədəni irsinin qorunması və müsəlman dünyasında təhsil və elmin təşviqi ilə bağlı İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının nəcib missiyasını təqdir edir və Azərbaycan ilə ISESCO arasında məhsuldar əməkdaşlığı minnətdarlıqla qeyd edirəm.

“ISESCO-nu 2021-ci ili “Qadınlar ili” elan etməsi ilə bağlı təşəbbüsü yalnız təşkilat tərəfindən qadınların cəmiyyətimizdəki roluna verilən əhəmiyyətin təzahürü deyil. Bu, həmçinin onların daha firavan və təhlükəsiz dünya naminə misilsiz töhfəsinin təsdiqidir. Biz bu gün COVID-19 ilə mübarizənin ön cəbhəsində dayanan qadın alim, həkim və səhiyyə işçilərinə ehtiramımızı ifadə etməliyik. Biz test üsullarının təkmilləşdirilməsindən tutmuş vaksinlərin hazırlanmasına qədər COVID-19 ilə mübarizənin müxtəlif mərhələlərində həlledici rol oynayan tədqiqatçı qadınlarımızla fərəhlənə bilərik. Mən yalnız onunla fəxr etmirəm ki, dünyada ilk dəfə, - bir əsrdən öncə, - sənaye üsulu ilə neft quyusunun qazıldığı, Şərqdə ilk operanın açıldığı və ən vacib olan, müsəlman dünyasında ilk demokratik respublikanın yaranmasına görə tanınan ölkədənəm. Azərbaycan həm də 1918-ci ildə qadınlara seçmək və seçilmək hüququnu verən ilk ölkələrdən biri olaraq tarixə düşmüşdür. Qızların təhsilinə gəldikdə isə, müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi azərbaycanlı xeyriyyəçi Zeynalabdin Tağıyev tərəfindən 1901-ci ildə mənim doğulduğum Bakı şəhərində yaradılmışdır.

Bu gün Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Qadınlar ölkəmizdə ali təhsil ocaqlarında magistrlərin 54 faizini, fəlsəfə doktorlarının 51 faizini, elmlər doktoru dərəcəsinə malik olanların 46 faizini və elmi tədqiqatçıların 56 faizini təşkil edir. Azərbaycan Milli Elmlər Akademiyasının ümumi kollektivinin 59 faizi qadınlardan ibarətdir.

Bununla yanaşı, sürətlə dəyişən dünyamızda qızların təhsili və onların elm sahəsində iştirakı yeni çağırışlara müvafiq olmalıdır. Dünyada elm, texnologiya, mühəndislik və riyaziyyat fənləri üzrə təhsil alanların 35 faizi qızlardır. Bizim ölkədə bu rəqəm 40 faizdir, yəni orta dünya göstəricisindən artıqdır.

Qeyd etdiyim kimi, bir çox azərbaycanlı qadın elmə böyük töhfələr verib və onlar elm sahəsi ilə məşğul olan qızlar və gənc xanımlar üçün əsl ilham mənbəyidir. Lakin bu gün ən vacib məsələ qızlar və gənc xanımların iştirak səviyyəsinin yaxşılaşdırılması üçün münbit şəraitin yaradılmasının davam etdirilməsi və elm sahəsində gender boşluğunun doldurulmasıdır.

Bir nümunə olaraq bu yaxınlarda BMT-nin İnkişaf Proqramı ilə bərabər başladığımız **“Qadınlar elm, texnologiya, mühəndislik və riyaziyyatda” adlı mentorluq proqramını qeyd edə bilərəm ki, burada məqsəd tələbə və gənc xanımların həmin sahədə uğur qazanmış nümunəvi şəxslərlə təmas yaratması və onlara təhsil və karyera sahəsində çağırışların öhdəsindən gəlmək üçün məsləhətlərin verilməsidir”.**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın ISESCO tərəfindən elan olunan “Qadınlar ili” çərçivəsində “Qadınlar və qızlar elmdə” Beynəlxalq Günü münasibətilə fevralın 11-də keçirilən videokonfrans formatında tədbirdəki çıxışından

Siz bunu bacararsınız!

Məsələ Klara Setkində deyil. 8 martın Beynəlxalq Qadınlar Günü kimi qeyd olunmasıdır. Bu günlə bağlı müxtəlif fikirlərə rast gəlirik. Bu bayramın "bizim” olmadığını vurğulayan, "qeyd etməməliyik" deyənlər də var. Bu, dini bayram deyil, milli bayram deyil yəni. Amma məna yükü böyükdür.

1857-ci ilin 8 martında qadınlar ABŞ-ın Nyu-York şəhərində ağır iş şəraitinə, 16 saatlıq iş gününə etiraz edirlər. Polis nümayişi dağıdır. 129 qadın yandırılaraq öldürülür. Qadınların iş şəraiti düzəlmir. Bunlar tarixdir. Bu günün Miladdan əvvəlki Bibliya rəvayətləri ilə əlaqələndirilməsi də bayrama başqa anlam vermək çabasıdır. Çünki 8 mart 1857-ci il hadisələri baş verəndə Klara Setkin hələ doğulmamışdı. Qadınların öz azadlıqları, hüquqları uğruna mübarizəsi illərlə, əsrlərlə davam edib.

Bəs, bu bayramla Klara Setkinin nə əlaqəsi var?

İllər sonra 1910-cu ildə Danimarkanın Kopenhagen şəhərində Qadın Sosialist İnternasionalın qurultayı keçirilir. Qurultayda alman sosialisti Klara Setkinin təklifi ilə öz hüquqları uğrunda ölən 129 qadının xatirəsinə 8 martın Dünya qadınlar günü kimi qeyd olunması qərara alınır. Kopenhagen qərarından sonra ilk dəfə olaraq 1911-ci ilin martında Avstriya, Danimarka, Almaniya və İsveçrədə bu gün qeyd edilib.

1914-cü ildə Rusiyada Beynəlxalq qadınlar günü martın 8-də baş tutur, başqa ölkələrdə də martın 8-i qeyd olunur. 1914-cü ildəki tədbir qadınların 1918-ci ilə kimi qazana bilmədikləri seçki hüququna həsr olunmuşdu. 1914-cü ilin 8 martında Londonda Boudan Trafalqar meydanına doğru qadınların seçki hüququna dəstək yürüşü oldu. 1917-ci il fevralın son bazar günü (yeni təqvimlə martın 8-nə düşür) Sankt-Peterburqda Qadınlar gününün qutlama nümayişləri Fevral İnqilabının əsasını qoydu. 8 martda "Çörək və sülh” adı altında keçirilən bu nümayiş digər Avropa ölkələrində də baş verdi.

Oktyabr inqilabından sonra bunu SSRİ-də rəsmi bayram elan etdilər, amma 1965-ci ilə kimi iş günü idi. 8 may 1965-ci il fərmanıyla SSRİ Ali Sovetinin Rəyasət Heyəti SSRİ-də Beynəlxalq Qadınlar Gününü qeyri-iş günü elan etdi.

1975-ci il Beynəlxalq Qadınlar ili olaraq tarixə düşdü. Həmin ilin beynəlxalq qadın ili elan edilməsindən sonra BMT-də 1975-ci ilin 8 martı ilk dəfə Beynəlxalq qadınlar günü olaraq keçirildi. İki il sonra 1977-ci ildə isə nəhayət Birləşmiş Millətlər Təşkilatının Ümumi Qurultayında 8 mart “Qadın hüquqları və beynəlxalq sülh günü” olaraq qəbul edildi.

Beynəlxalq Qadınlar Günü, eyni zamanda, qadın hüquqlarının qorunması və bugünkü qadının daha azad olmasının tarixi səbəblərinin xatırlanmasıdır.

Mahiyyətə varsaq, 8 mart, sadəcə, qadınlar günü yox, dünyaya sülh arzulayanların, ədalət istəyənlərin, insan – qadın haqlarını bərabər haqlar tələbi ilə qoruyanların günüdür.

Beynəlxalq qadınlar günü bizim Azərbaycanda da qeyd olunur. Biz də sülh istəyirik, insan haqlarını – haqlarımızı qorumağa çalışırıq. Azərbaycan həm də Avropa Şurasının qadınlarla bağlı bürosunda təmsil olunur, BMT-nin qadın məsələləri üzrə komissiyasının tamhüquqlu üzvüdür. 1995-ci ildə isə Azərbaycan rəsmi şəkildə qadınlara qarşı münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında beynəlxalq konvensiyaya qoşulub. 1998-ci ildə Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması da təsadüfi deyil.

Əslində, bu tarix haqda uzun–uzadı nəsə yazmaq fikrim yox idi. Bir az elə alındı. Ağlımda dolaşan, çox eşitdiyimiz "dahilərin, tarixi şəxsiyyətlərin əksəriyyəti kişilərdi” sözləridi. Bunu, məsələn kişilər daha ağıllıdı, beyinlərində qırışlar çoxdu və bu kimi başqa səbəblərlə izah edənlər də olur. Təskinlik üçün (hər halda mən belə düşünürəm) "onları dünyaya gətirən qadınlardı” deyirlər. Mənim qənaətim başqadır: məsələ təkcə dünyaya gətirməkdə deyil, o səviyyəyə çatdırmaqdadı. İstənilən qadın - ana, bacı, həyat yoldaşı, qohum, dost kişini zirvədə görmək istəyir, ona dayaq olur, ruhlandırır, qulluğunda dayanır…

Bəs, kişilər? Məsələn, bizdə qadın böyük amallarla yaşayırsa, seçilmək istəyirsə, nə baş verir? Hökmən ona mane olurlar: evdəki kişilər - ata, qardaş, həyat yoldaşı. Onlar olmasa, ətrafdakılar. Qadına dəstək olanda o yazıçı da, alim də, deputat da, nazir də… ola bilər və olur da. Üstəgəl, məişət qayğılarının heç olmasa, yarısı kişinin öhdəsinə düşsə, dahilərin çoxu qadınlar olar.

Xatırlatma. Dünyanı heyrətləndirən beyinlərdən biri Eynşteyndir. Onun haqda "Dahi” filminə baxdım. Öz tələbə yoldaşı olmuş ilk xanımının ona çox dəstək olduğunu bilirdim. Amma İsveçrə Federal Politexnik məktəbinə fizika-riyaziyyat müəllimi ixtisasına imtahan verərkən Mileva Mariçin riyaziyyat imtahanında Eynşteyndən də üstün bal yığan yeganə tələbə olduğunu bilmirdim. Fizikadan isə hər ikisinin balı eyni olub. Qadın çox savadlı, çox zəki olur. Eynşteynə dəstək verir, ilk elmi yazılarını oxuyur, rəy verir, düzəldir, araşdırmalarda yardım edir və s. Amma o vaxt çap olunan heç bir elmi məqaləsində xanımının adı keçmir…

Bu savadlı qadın yalnız üç uşaq anası olaraq məişət, ailə qayğılarıyla çabalayan biri kimi qalır…

Filmdə o dövrün başqa elm adamlarının da həyatına aid maraqlı hadisələr yer alır.

Məsələn, Pyer və Mariya Kürilər cütlüyü. Nobel mükafatına layiq görülən Pyer Küri xanımı Mariya Kürinin adının olmadığını bildikdə mükafatdan imtina edir: "Bu nəticələri əldə etməmdə Mariyanın zəhməti çoxdu. O, mənimlə birlikdə çalışıb, ona haqsızlıqdır” deyir. Mariyanın bir alim kimi yalnız qadın olduğu üçün görməzdən gəlindiyinə etiraz edir. Beləliklə, münsiflər Mariya kimi böyük alimə göz yuma bilmirlər və o, ilk dəfə Nobel mükafatı alan qadın, ayrı-ayrı elm sahələrində (fizika və kimya) iki dəfə Nobel almış yeganə alim olur. Belə…

Diqqətli olsaq, məktəbdə yaxşı oxuyan, üzağardan, daha məsuliyyətli, daha böyük arzularla yaşayan şagirdlərin əksərən qızlar olduğunu görürəm. Amma sonra? Hə, bu sonra kişilərlə bağlı olduğu üçün qızlarımızın arzularının çoxu xəyal olaraq qalır. Məktəbdə işləyənlər də qadınlardı. Heç bu kişilər - atalar valideyn kimi də məktəbdə görünmürlər. Niyə? Təhsil çox çətin sahədi ona görə. Bir polis rəisi olub onun-bunun haqqını tapdalamağı qadınlar bacarmaz.

2021-ci il İSESCO tərəfindən “Qadınlar ili” elan olunub. Fevralın 11-də keçirilən “Qadınlar və qızlar elmdə” Beynəlxalq videokonfrasda ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın maraqlı çıxışı oldu. Ölkəmizin Birinci xanımının bu tədbirə qonaq dəvət edilməsi həm də Azərbaycanla İSESCO arasındakı əlaqələrin göstəricisidir. Mehriban xanım bu ilin “Qadınlar ili” elan edilməsinin əhəmiyyətini xüsusi vurğuladı. Mən də bu gün Mehriban xanım Əliyevanın bütün fəaliyyəti ilə hər birimizə örnək ola biləcəyini vurğulamaq istəyirəm.

Sonda demək istərdim ki, Qadınlar qayğı çəkər, əzab çəkər, dözər, sevər, öyrədər. **Əziz KİŞİLƏR, səlahiyyətləri qadınlara verin. Dünyanı qadınlar xilas edə bilər. Məsələn, ən azı bu qədər çəkişmələr, müharibələr olmaz.Təbii ki, bunu kişi eqosu bacarmaz. Heç olmasa həyatınızda, yanınızda, ətrafınızda olan qadınları sevin, sevindirin, dəyərləndirin, hər gününü bayrama döndərin, onların qarşısında maneə olmayın, onlar kimi siz də arxa, dayaq olun. Onları dözümə sürükləməyin. Siz bunu bacararsız! Qadın sevgisi sizin dayağınızdı. Onların sevinci sizin bayramınızdı.**

BAYRAMINIZ MÜBARƏK!

Kəmalə Abiyeva,
şair, publisist

Bu gün hər qəmini soyunub dünya,
Çaylar gülüş olub dodaqlarında.
Təbəssüm donunu geyinib dünya
Sevinc gözü dolub bulaqların da.

Ulduzlar axışır bu gün torpağa,
Qadın gözlərindən nur qoparmağa.
Günəş də göylərdən enibdi yerə
Qadın ürəyindən od aparmağa.

Dünya sağlıq deyir qadın şəninə,
Dənizlər əlində piyaləsidir.
Səpilən qadının qədəmlərinə
Dağların nəğməkar şələləsidir.

Bu gün təravətə dönübdü çöllər,
Bu gün səadətə bürünüb ellər.
Məhəbbət, gözəllik çələngi kimi
Bu günü saçına taxıbdı illər.

Yanvarda 30 min tondan çox sement məhsulları ixrac edilib



Cari ilin yanvar ayında Azərbaycandan 30 min tondan çox hazır və ya klinker formasında sement məhsulları ixrac edilib.

AZƏRTAC Dövlət Gömrük Komitəsinin (DGK) məlumatlarına istinadla xəbər verir ki, ixrac edilən sement məhsullarının dəyəri isə 1,02 milyon ABŞ dolları olub.

Bu göstərici yanvarda ümumi ixracın 0,06 faizinə, qeyri-neft sektoru üzrə ixracın isə 0,7 faizinə bərabərdir.

"S&P" Azərbaycanın qeyri-dövlət borcu üzrə proqnozunu açıqlayıb

"S&P Global Ratings" ("S&P") reytinq agentliyi Azərbaycanın qeyri-dövlət borcunun 2021-ci ilin sonuna 9,5 mlrd. ABŞ dolları təşkil edəcəyəni proqnozlaşdırır.

2020-ci ilin yekunlarına əsasən, bu göstərici 9 mlrd. dollara bərabər olub. Beləliklə, gözləntilərə əsasən, ölkənin qeyri-dövlət borcu 5,6% artacaq.

"S&P" qeyd edir ki, 2020-ci ildə Azərbaycanın qeyri-dövlət borcu ölkənin ümumi borcunun 63,2%-ni təşkil edib. Dövlət borcunun 97,7%-i uzunmüddətli sabit, 2,3%-i isə qısamüddətli borclar olub. Ölkənin ümumi borcunun 57,9%-i xarici valyutadadır. Bundan əlavə, ümumi borcun 36,9%-i beynəlxalq maliyyə qurumlarına olan borcların payına düşür.

Agentliyin araşdırmasına görə, inkişafda olan ölkələr arasında 2020-ci ilin sonuna ən yüksək qeyri-dövlət borcu Misirdə (292,1 mlrd. dollar və ya ümumi borcun 85,6%-i) olub. Ölkənin bu göstəricisinin 2021-ci ildə 314 mlrd. dollara çatacağı proqnozlaşdırılır. Sözügedən göstəriciyə görə ikinci olan Rusiyanın isə 2020-ci ilin sonuna 228,5 mlrd. dollar (ümumi borcun 99,6%-i) həcmində qeyri-dövlət borcu yığılıb.

"S&P"nin proqnozlarına əsasən, bu göstəricinin 2021-ci ilin sonuna 270,4 mlrd. dollara qədər artacağı güman edilir.

"SOCAR Polymer" şirkəti 14.7 milyon ABŞ dolları dəyərində məhsul ixrac edib

Bu ilin yanvar ayında "SOCAR Polymer" şirkəti 14.7 milyon ABŞ dolları dəyərində məhsul ixrac edib.

"Banker.az"a İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən verilən məlumata əsasən, bu, keçən ilin müvafiq dövrü ilə müqayisədə 3.7 milyon ABŞ dolları və ya 33.6% çoxdur.

Qeyd edək ki, "SOCAR Polymer" şirkəti Sumqayıt Kimya Sənaye Parkının (SKSP) rezidentidir. Şirkət biri polipropilen, digəri isə yüksək sıxlıqlı polietilen istehsalı üçün nəzərdə tutulan iki zavod inşa edib. Həmin PP və YSPE zavodlarının istehsal gücü müvafiq olaraq ildə 184 min və 120 min ton təşkil edir.

3 milyon manatlıq balıqçılıq şirkəti yaradıldı

Azərbaycanda "Xıllı Balıq" MMC dövlət qeydiyyatına alınıb.

Azərbaycanın zəngin balıq vətəgələri ilə məşhur olan Neftçalada yeni, şirkətin təsis olunması bu sahənin inkişafına böyük töhfə verəcək. Yeni şirkətin hüquqi ünvanı Neftçala rayonu, Xıllı qəsəbəsi, nizamnamə kapitalı 3 102 007 manat, qanuni təmsilçisi isə Elşad Kənan oğlu Əhmədovdur.

Qarabağda xidmət edən hərbçilərin maaşına 100 faiz həcmində əlavə edilib

"Post-müharibə dövrünün bir sıra təhdidlərini, xidmətin xüsusiyyətlərini, qulluq və sosial-məişət şəraitinin mürəkkəbliyini nəzərə alaraq müdafiə nazirinin müvafiq əmrinə əsasən hərbi qulluqçuların vəzifə maaşlarına müddətli əlavələr müəyyən edilib". Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

"Əmrə əsasən Azərbaycan Ordusunun Ermənistanla dövlət sərhədində və Azərbaycanın Qarabağ bölgəsində Rusiya Federasiyası sülhməramlı kontingentinin yerləşdirildiyi zonaya bitişik ərazilərdə hərbi xidmət keçən hərbi qulluqçuların vəzifə maaşlarına 100 faiz həcmində müddətli əlavələr təyin edilib. İşğaldan azad edilmiş və hazırda infrastruktur qurulmayan ərazilərdə hərbi xidmət keçən hərbçilərin vəzifə maaşlarına isə 50 faiz həcmində müddətli əlavələr təyin olunub. Qeyd edək ki, əmr cari ilin yanvar və fevral ayları üçün ödəniləcək pul təminatına da şamil edilir", – məlumatda qeyd olunub.

Azərbaycan, Qazaxıstan və Türkiyənin vitaminli duz istehsalı layihəsinə start verildi

İzmir azad iqtisadi zonasında fəaliyyət göstərən "Al Karal Gida Sanayi Mamülleri Ticaret A.Ş." şirkəti vitaminli duz istehsalı fabrikini istifadəyə verib.

Layihəyə edilən yatırımlar 5 milyon dollar dəyərində qiymətləndirilir, bu barədə layihənin direktoru Fərhad Ömərov məlumat verib.

Onun sözlərinə görə, müasir istehsalat sexinin tikintisi və təchizatı rekord müddətə – 8 aya başa çatıb.

"Yeni "Al Karal" duzunun çeşidinin əsas hissəsi Almaniya, Hollandiya, Finlandiya, İngiltərə, BƏƏ, ABŞ, Kanada, Azərbaycan və Qazaxıstana ixrac ediləcək", – deyə Ömərov qeyd edib.

Layihə direktoru bunun Azərbaycan, Qazaxıstan və Türkiyənin ortaq işi olduğunu vurğulayıb.

ABŞ şirkəti Azərbaycanda yeni törəmə şirkət yaratdı

Baş ofisi ABŞ-ın Texas ştatında, Hyuston şəhərində yerləşən, neft sənayesində fəaliyyət göstərən "Wellbore Integrity Solutions" enerji şirkəti Azərbaycanda yeni törəmə şirkət təsis etdirib. Azərbaycanda yaradılan törəmə şirkət "Vellbore İntegrity Solutions Azərbaycan" MMC-dir. Şirkət 15 min dollar nizamnamə kapitalına sahibdir, direktor isə Anar Məmmədov Saleh oğludur. A.Məmmədov buna qədər "Schlumberger" və "SOCAR AQŞ" kimi şirkətlərdə çalışıb. Şirkət Bakı şəhəri, Səbail rayonu, Rəsul Rza ev. 15, m. 28-30 ünvanında dövlət qeydiyyatına alınıb.

Pambıq lifi və ipliyinin ixracı artıb

Yanvarda ölkədən 10,4 min ton pambıq lifi və 1,4 min ton pambıq ipliyi ixrac edilib.

AZƏRTAC Dövlət Gömrük Komitəsinə istinadla xəbər verir ki, ixrac edilən pambıq lifinin dəyəri 14,3 milyon dollar, pambıq ipliyinin dəyəri isə 3,2 dollar olub.

Xatırladaq ki, 2020-ci ilin yanvarında dəyəri 10,5 milyon dollar olmaqla 7,8 min ton pambıq lifi və dəyəri 2,9 milyon dollar olan 1,2 min ton pambıq ipliyi ixrac edilib.

BƏƏ-nin alternativ enerji istehsalçısı Azərbaycanda şirkət yaratdı

Azərbaycan alternativ enerji mənbələrinin səmərəli istifadə olunması və istehsalı ilə bağlı BƏƏ-yi şirkətləri ilə birgə müqavilə imzalayıblar. Birləşmiş Ərəb Əmirliyinin Azərbaycanda törəmə şirkəti olan "Masdar Azerbaycan" MMC-ni dövlət qeydiyyatına alıb.

Şirkət 2021-ci il fevralın 25-də 100 manatlıq nizamnamə kapitalı ilə dövlət qeydiyyatına alınıb. Şirkətin qanuni təmsilçisi Dilarə İsrafilovadır.

2020-ci ilin yanvar ayında Azərbaycanın Energetika Nazirliyi və "Masdar" şirkəti (BƏƏ) arasında günəş elektrik stansiyasının tikintisi ilə bağlı icra müqaviləsi imzalanıb. Bu layihənin həyata keçirilməsi üçün cari ilin mart ayında şirkətlə digər müqavilələrin ("İnvestisiya sazişi", "Elektrik enerjisinin alğı-satqısına dair" saziş və "Paylayıcı şəbəkəyə qoşulmaya dair" saziş) imzalanması planlaşdırılır.

"Masdar" şirkətinin inşa edəcəyi günəş elektrik stansiyası Bakıdan 75 km cənub-qərbdə yerləşəcək. Stansiyanın inşası iki ilə yaxın vaxt aparacaq. Layihəyə investisiya qoyuluşu təxminən $100 milyon məbləğində qiymətləndirilir.

Çex Respublikasında rekord iqtisadi tənəzzül qeydə alınıb

Koronavirus pandemiyasının səbəb olduğu məhdudiyyətlər üzündən Çex Respublikasında 2020-ci ildə ÜDM 5,6 faiz azalıb.

"Çeska televize" xəbər verir ki, Çex Statistika Ofisinin məlumatına görə, bu, 1993-cü ilin 1 yanvar tarixində yaradılan müstəqil respublika tarixində ən böyük tənəzzüldür.

Karantin məhdudiyyətləri ən çox mehmanxana və turizm sahələrinə, ticarətə və nəqliyyata ziyan vurub. Həmçinin pandemiyanın birinci dalğası dövründə bir sıra sənaye müəssisələri də fəaliyyətini dayandırıb. Ölkədə istehlakçı tələbatı və sərmayədarlıq da zəifləyib.

Azercell müştəri təcrübəsinin idarə edilməsinə görə yeni mükafat qazanıb

BUREAU VERITAS Certification

AZERCELL TELECOM LLC

149 Tbilisi Ave., Baku, AZ1122, Azerbaijan

Bureau Veritas Certification certify that the Management Systems of the above organisation has been audited and found to be in accordance with the requirements of the management system standards detailed below

Standard

ISO 10004:2018

Scope of certification

MOBILE COMMUNICATION SERVICES

Original cycle start date: 20 February 2021
Expiry date of previous cycle: N/A*
Certification / Recertification Audit date: 04 December 2020
Date of certification/recertification decision: 19 February 2021
Subject to the continued satisfactory operation of the organization's Management System, this certificate expires on: 19 February 2024

Certificate No. AZ1128 Version No. 1 Revision date: 20 February 2021

Daha bir beynəlxalq ISO – Keyfiyyətin İdarə Olunması standartı lider mobil operatorun abunəçilərinə göstərdiyi yüksək xidmət səviyyəsinin növbəti göstəricisidir.

Müştəri Xidmətləri sahəsində ölkəmizdə örnək olan "Azercell Telekom" MMC ISO 10004:2018: Keyfiyyətin idarə olunması/ Müştəri məmnuniyyətinin monitorinqi və ölçülməsi üzrə təlimatlar beynəlxalq standartına uyğunluq üzrə sertifikasiya auditini başa vuraraq məhz həmin standart üzrə ilk sertifikatını əldə etdi. "Büro Veritas Azeri" MMC tərəfindən aparılmış audit zamanı müştəri məmnuniyyətinin ölçülməsi və monitorinqi prosesi haqda ətraflı məlumat verildi. Buraya prosesin ümumi əhatə dairəsi, müştəri məmnuniyyətinin ölçülməsinin müxtəlif üsulları, əldə edilən nəticələr əsasında müvafiq tədbirlərin görülməsi və proseslərin, eləcə də xidmətlərin təkmilləşdirilməsində məlumatın istifadə edilməsi və s. kimi tərkib hissələr daxil idi.

Müasir texnologiyaların və biznes həllərin köməyilə müştərilərinin işini asanlaşdırmağı hədəfləyən Azercell hazırda öz abunəçilərinə bütün mümkün platformalar üzərindən xidmətləri təqdim edir. Şirkət sosial şəbəkələr üzrə müştərilərə göstərilən xidmət səviyyəsi, müraciətlərin cavablandırılması üzrə dəfələrlə beynəlxalq sertifikatlara layiq görülüb. Hətta COVID-19 pandemiyası ilə əlaqədar tətbiq olunan sərt karantin rejimində Azercell Müştəri Xidmətləri fasiləsiz olaraq onlayn şəkildə fəaliyyət göstərib, yaşı 65-dən yuxarı olan abunəçilərə isə Səyyar Müştəri Xidmətləri tərəfindən pulsuz xidmət aparılıb. Azercell-in istifadəyə verdiyi "Kabinetim" tətbiqi müştəri məmnuniyyətinin artırılması, şikayətlərin dərhal həlli istiqamətində atılmış böyük addımlardan biri olub.

ISO (Beynəlxalq Standartlaşdırma Təşkilatı) ümumdünya milli standartlar qurumları (ISO üzv qurumları) federasiyasıdır. İndiyədək federasiya tərəfindən idarəçilik, texnologiyalar və biznes sahəsində əmtəələrə, xidmətlərə və müsbət təcrübələrə dair minlərlə standartlar müəyyənləşdirilib.

Azercell ilə TikTok indi daha əlçatandır!

Lider mobil operator yeni "TikTok internet paketi"ni təqdim edir

Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC dünyada 800 milyondan çox istifadəçinin rəğbətini qazanan TikTok sosial şəbəkəsinin pərəstişkarlarını sevindirir. Mobil operator son zamanlar sosial mediada rezonans yaradan TikTok üçün xüsusi internet paketi istifadəyə verir.

Fevral ayının 23-dən mart ayının 31-dək yeni paket çərçivəsində 1GB həcmində interneti cəmi 2 AZN-ə təklif edən Azercell, gənc nəslin sevimlisi olan TikTok tətbiqini müştəriləri üçün daha da əlçatan edir.

Populyar musiqi və filtrlərdən istifadə edərək qısa videolar yaratmağa və paylaşmağa imkan verən TikTok-dan endirimli qiymətlərlə yararlanmaq üçün T açar sözünü 2525 qısa nömrəsinə göndərmək kifayətdir.

Qeyd edək ki, "TikTok internet paketi"ni yalnız Azercell-in aylıq internet paketlərinə abunə olan müştərilər sifariş edə bilər.

Sevdiyiniz sosial şəbəkədən əlverişli şərtlərlə yararlanmağa tələsin!

"Amrah Sığorta" ASC-nin Səhmdarlarının Ümumi Yığıncağı keçiriləcək

"Amrah Sığorta" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının Ümumi Yığıncağı keçiriləcəkdir. Yığıncaq 26 Fevral 2021-ci il tarixdə, saat 15:00-da Bakı şəhəri, Nərimanov rayonu, R.Muxtarov küçəsi 38 ünvanında keçiriləcək.

Yığıncaqda "Amrah Sığorta" ASC-nin ləğvetmə prosesinin gedişatı haqqında məsələlərin müzakirəsi nəzərdə tutulmuşdur.

AMRAH SIĞORTA

Dünyada milyarderlərin sayı rekord həddə çatıb

Hər il dünyanın ən varlı adamlarının siyahısını təqdim edən "Hurun Research Institute" təşkilatının hesabatına görə, hal-hazırda milyarderlərin sayı 3 228-ə çatıb ki, bu da yeni bir rekorddur.

Banker.az bu barədə xarici KİV-ə istinadən xəbər verir.

Məruzədə pandemiyaya baxmayaraq, planetin ən varlı insanlarının 2021-ci il yanvarın 15-nə olan ümumi sərvətinin 32% və ya 3,5 trilyon dollardan 14,7 trilyon dollara qədər artdığı bildirilir.

Siyahıda dünyanın ən zəngin adamı kimi "Tesla" və "SpaceX"in qurucusu 49 yaşlı İlon Mask göstərilir. Qeyd edək ki, onun varidatı bu il 197 milyard dollara çatıb. Ondan sonra ikinci sıranı 189 milyard dollarlıq sərvətlə 57 yaşlı "Amazon" şirkətinin sahibi Ceff Bezos tutur. "Louis Vuitton Moët Hennessy" şirkətinin prezidenti Bernar Arno isə 114 milyard dollar ilə reytinqin üçüncü sırasında yer alır.

"Microsoft"un yaradıcısı Bill Qeyts (110 milyard dollar), "Facebook"un qurucusu Mark Çukerberq (101 milyard dollar) və investor Uorren Baffet (91 milyard dollar) ilk beşlikdədirlər. İlk onluğa həmçinin sərvəti 85 milyard dollara qədər böyüyən Zhong Shanshan da daxil olub. O, dünyanın ən varlı adamlarının ilk onluğuna daxil olan ilk çinlidir.

Qeyd edək ki, ölkədə yaşayan milyarderlərin sayına görə Çin liderlik edir. İnstitutun verdiyi məlumata görə, ABŞ-da 696, Çində 1 058 milyarder yaşayır.

Ümumilikdə dünyadakı milyarderlərin yarıdan çoxu Çinin payına düşür.

Ötən il həmçinin Hindistan (177 milyarder), Almaniya (141 milyarder) və Böyük Britaniya (134 milyarder) üçün uğurlu olub.

Şəhərlərə gəldikdə, ilin nəticələrinə əsasən Pekin "milyarderlərin dünya paytaxtı" statusunu qoruyub saxlayıb. Belə ki, ümumi sərvəti 1 milyard dollardan çox olan 145 milyarder məhz bu şəhərdə yaşayır.

Şanxayda 113, Nyu-Yorkda – 112, London və Honkonqda 82, Moskvada 68.

Qadın milyarderlərin sayı 231 nəfərə yüksəlib, onların 60%-dan çoxu Çində yaşayır. Dünyanın ən zəngin qadını isə "Wal-Mart" mağazalar şəbəkəsinin sahibinin qızı Elis Uoltondur (74 milyard dollar).

Bloomberg: Dünya əhalisinin 75 faizinin vaksinasiyasına 4,5 il lazım gələcək

İndiyə qədər dünyanın 107 ölkəsində insanlara koronavirus əleyhinə 245 milyon vaksin dozası vurulub.

Bloomberg agentliyinin məlumatına əsasən, hazırda hər gün dünya üzrə təxminən 6,79 milyon insan COVID-19 infeksiyasına qarşı peyvənd olunur. Bu templə dünya əhalisinin 75 faizinin vaksinasiya edilməsi üçün təxminən 4,5 il vaxt lazım gələcək.

Yüz nəfər əhaliyə düşən vaksin dozasının miqdarına görə İsrail birinci pillədə qərarlaşıb (89.9 nəfər). Sonrakı yerləri Birləşmiş Ərəb Əmirlikləri (56,08 nəfər), Böyük Britaniya (31,58) və ABŞ (23,16) tutur. Qeyd edək ki, 2020-ci ilin mart ayında Ümumdünya Səhiyyə Təşkilatı COVID-19 virusunun yayılmasını pandemiya elan edib. Pandemiyanın statistikasını aparan Worldometer saytının bu günə olan məlumatına əsasən, dünyada COVID-19 xəstəliyinə 115 milyon 76 mindən çox yoluxma və 2 milyon 552 mindən çox ölüm faktı qeydə alınıb, 90 milyon 797 min nəfər sağalıb. Müalicəsi davam edən 21 milyon 727 min nəfərdən 90 min 335-nin vəziyyəti ağır qiymətləndirilir.

AZMİKROİNVEST
BANK OLMAYAN KREDİT TƏŞKİLATI

"Azmikroinvest" Bank Olmayan Kredit Təşkilatı MMC bildirir ki, 01 aprel 2021-ci il tarixindən etibarən fəaliyyətini Bakı şəhəri, Səbail rayonu, Neftçi Qurban Abbasov küçəsi 29 ünvanında yerləşən qeyri-yaşayış binasının ("Bayıl Plaza") 3-cü mərtəbəsindəki ofisində davam etdirəcəkdir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, «Azermedia» MMC nəşriyyatı mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500